NYELENI 2011
EUROPEAN FOOD SOVEREIGNTY FORUM

**Press-reliz, 23 avqust 2011**

**Ərzaq Təhlükəsizliyi böhranına Avropanın cavabı!**

Krems, Avstriya, 22 avqust 2011

5 günlük gərgin, ilhamlı və konstruktiv mübadilələrdən sonra “Nyeleni Europe 2011” Ərzaq Təhlükəsizliyinə dair Avropa Forumu başa çatdı. Forum Ərzaq Təhlükəsizliyinə dair ilk Avropa Bəyannaməsini qəbul etdi.

Avropa ölkələrini təmsil edən 400-dən artıq nümayəndə ərzaq sistemi üzərində ictimai nəzarəti həyata keçirmək, aqrosənaye sisteminə müqavimət göstərmək və daha geniş əhali kütlələrinə çıxış yaparaq birləşmək istiqamətində öz üzərilərinə birgə səylərini gücləndirmək öhdəliyi götürdülər.

Vətəndaş cəmiyyəti və ictimai hərəkatları təmsil edən 120-dən artıq təşkilat və fərdi şəxslər hazırda Avropa və qlobal səviyyədə həyata keçirilən siyasətlərin təsirini müzakirə etdilər. Birlikdə onlar Avropada ərzaq təhlükəsiziliyinə nail olmaq üçün hərtərəfli platformanı və bir sıra prinsipləri hazırladılar. Forumda narahatlıqları tez-tez nəzərə alınmayan gənclər, qadınların və ərzaq istehsalçılarının səslərinin töhfəsi vurğulandı. Bu müxtəliflik və zəngin təcrübə 2011-ci ilin Nyeleni Forumuna ümumi çərçivəni və demokratik və ictimaiyyətin iştirakı prosesinə əsaslanan birgə fəaliyyət planını müəyyən etməyə imkan verdi.

Bəyannamədə vurğulanmışdır: "Biz əminik ki, bizim ərzaq sistemimizdə dəyişiklik bizim cəmiyyətlərimizdə daha geniş dəyişikliyə tərəf atılmış ilk addımdır". Forum nümayəndələri aşağıda qeyd olunanları yerinə yetirməklə ərzaq sistemini öz əllərinə götürmələri ilə bağlı inadla öhdəlik götürdülər:

* Sənayeləşməmiş kiçik fermer təsərrüfatlarına, emal və alternativ paylaşdırmaya əsaslanan ekoloji cəhətdən dayanıqlı və sosial baxımdan ədalətli ərzaq istehsalatlarının və istehlakın modellərinə nail olmaq istiqamətində işləmək;

* Ərzaq paylama sisteminin mərkəzsizləşdirilməsi və istehsalçılar ilə istehlakçılar arasında zənciri qısaltmaq;

* Məxsusi olaraq qida və kənd təsərrüfatı sahələrində iş şəraiti və sosial şərtləri yaxşılaşdırmaq;

* Ümumi ehtiyatların və irsin (torpaq, su, hava, ənənəvi biliklər, toxumlar və mal-qara) istifadəsində qərar qəbul etməni demokratikləşdirmək;

* Bütün səviyyələrdə dövlət siyasətlərinin ərzaq istehsalçıları üçün kənd yerlərinin istifadəyə yararlılığına, ədalətli qiymətlərin müəyyən olunmasına zəmanət verməsini təmin etmək və hamının təhlükəsiz, Genetik Dəyişmiş Orqanizmlər olmayan ərzaqlara çıxışını təmin etmək.

Siyasi dəyişkənliyin, social-iqtisadi böhranın hökm sürdüyü dövrümüzdə Ərzaq Təhlükəsizliyi üzrə Nyeleni Forumunun nümayəndələri Ərzaq Təhlükəsizliyində əks olunduğu kimi digər insanlara və çox dəyərli olan təbii ehtiyatlara zərər vurmadan insanların öz ərzaq və kənd təsərrüfatı siyasətləri və sistemlərini müəyyən etmək hüququnu xüsusi olaraq vurğulayan birgə həmrəylik yanaşmalarını bir daha təsdiq etdilər.

**Məhz ona görə biz indi Avropada ərzaq təhlükəsizliyini müstəqilliyini tələb edirik.**

Nyeleni Avropa Forumunun İdarə Heyəti

***

Bəyannamənin tam mətnini Nyeleni Forumu 2011 vebsaytında əldə etmək mümkündür:
www.nyelenieurope.net <http://www.nyelenieurope.net/>
***
**Əlavə məlumat üçün lütfən aşağıda adları qeyd edilmiş Nyeleni Avropa Forumu İdarə Heyəti üzvləri ilə əlaqə saxlayın:**

- Jenevyeva Savinyi (Fransız, İngilis dili): 0033 625551687
- Irmi Salzer (Alman, İngilis dili): 0043 6991182634
- Xavier Sançes (İspan dili): 0034 609359380
- Luka Kolombo (İtaliyan, İngilis dili): 0039 3483988618
- Devid Sançes (İspan, İngilis dili): 0034 91 306 99 00/21